# AZƏRBAYCAN | AZERBAIJAN

## USCIRF–RECOMMENDED FOR SPECIAL WATCH LIST

Beynəlxalq Dini Azadlıq üzrə ABŞ Komissiyası (USCIRF) xaricdə ümumbəşər dini və ya inanc azadlığı hüququnu monitorinq edən, müstəqil, iki partiyanın dəstəklədiyi ABŞ federal hökumətinin komissiyasıdır. 1998-ci il Dini Azadlıqlar Aktı (IRFA) ilə yaradılmış USCIRF xaricdə dini azadlıq və inancın pozulmasını müşahidə etmək üçün beynəlxalq standartlardan istifadə edir və prezidentə, dövlət katibinə və Konqressə siyasətlə bağlı tövsiyələr verir. USCIRF, ABŞ Dövlət Departamentindən ayrı və fərqli olan müstəqil bir qurumdur. 2020-ci il üzrə İllik Məruzə yerlərdə pozuntuları sənədləşdirən Komissarlar və peşəkar heyət tərəfindən hazırlanmış bir illik işin kulminasiyasıdır və siyasət ilə bağlı ABŞ Hökumətinə müstəqil tövsiyələr verir. 2020-ci ilin İllik Məruzəsi 2019-cı ilin yanvar ayından 2019-cı ilin dekabrına olan müddəti əhatə edir, hərçənd ki, bəzi hallarda bu zaman çərçivəsindən sonra baş vermiş əhəmiyyətli hadisələr də qeyd edilmişdir. USCIRF barədə ətraflı məlumat üçün, burada vebsaytı ziyarət edin və ya USCIRF ilə birbaşa 202-523-3240 nömrəsi vasitəsilə əlaqə saxlayın.

## ƏSAS TAPINTILAR

2019-cu ildə Azərbaycanda dini azadlıq vəziyyətləri müsbətə doğru dəyişib, belə ki, hökumət dini icmalara qarşı reydlər keçirməyi əsasən dayandırıb və buna bənzər şəkildə, öz dininə və ya inanclarına dinc şəkildə, icazəsiz əməl etməyə görə uzun müddətdən bəri tətbiq edilən fərdlərin saxlanılması və cərimələnməsi təcrübəsini azaldıb. 2019-cu ilin mart ayında Azərbaycan Prezidenti İlham Əliyev 51 siyasi və dini məhbusların azad olunması ilə nəticələnən prezidentin əhv fərmanını verdi. Başqa bir müsbət dəyişiklik odur ki, Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi il ərzində 31 müsəlman və üç xristian icmasını qeydiyyatdan keçirmişdir. İl boyu, Azərbaycanın ABŞ-dakı səfirliyi və digər hökumət rəsmiləri dini azadlıq narahatlıqları ilə bağlı USCIRF ilə yaxından təması davam etdirmişlər.

Bu irəliləyişlərə baxmayaraq, hökumət bütün dini icmalara və onların fəaliyyətlərinə yersiz nəzarəti tətbiq etməyə davam edib. Hökumət rəsmiləri 2009-cu il Dini Etiqad Azadlığı Haqqında Qanunu, eləcə də inzibati və cinayət məcəllələrinin müvafiq maddələri vasitəsilə dini təcrübələri idarə etməyə və məhdudlaşdırmağa davam edib. Digər məhdudiyyətlər ilə yanaşı bu qanun, dini icmaların dövlət qeydiyyatından keçirilməsini tələb edir; bütün qeydiyyatdan keçməmiş dini fəaliyyəti cinayət tərkibli hesab edir; dini fəaliyyəti hər bir icmanın qeydiyyatdan keçmiş ünvanı ilə məhdudlaşdırır; və bütün növ dini ədəbiyyatın məzmunu, hazırlanması, idxalı, ixracı, paylanması və satışına görə dövlətin icazəsini tələb kimi irəli sürür. Nəticədə xristian dini icmalar və fərdlər öz dini fəaliyyətlərini məhdudlaşdırdıqlarını və mümkün hökumət təqibi qorxusu ilə, öz dini fəaliyyətlərini gizli şəkildə yerinə yetirdiklərini bildiriblər. Azərbaycanın Konstitusiyası icbari hərbi qulluğun bir fərdin inancları ilə ziddiyyət təşkil edəcəyi təqdirdə alternativ hərbi xidmət haqqını təmin etsə də, hökumət alternativ hərbi xidmət variantını təmin etməyib və keçmişdə Yehova Şahidlərini şüurlu etiraz haqqından istifadə etməsinə görə təqib edərək, onları "hərbi xidmətdən yayınma" ilə ittiham edib. Əlavə olaraq, bildirilənə görə, hökumət bəzi Yehova Şahidləri üzvlərinə səyahət qadağası qoymaqla, onların ölkəni tərk etməsinə mane olmaqla, qadağaya qarşı etiraz və ya şikayət yolunda onları aşkar imkanlardan məhrum etmişdir.

Azərbaycan dini fəaliyyətlərinə görə şəxsləri həbsə salmağa davam edib. Ölkədəki siyasi məhbusları izləyən qeyri-hökumət təşkilatlarının bildirdiyinə (QHT) görə, ilin sonunda 45 dini fəal məhbəsdə qalmışdı. Xaricdə dini təhsil aldıqdan sonra qeyri-qanuni İslami tədbirlərə rəhbərlik etdiyinə görə 2017-ci ildə həbsə atılmış şiə imamı Sərdar Babayev 2019-cu ilin sonuna qədər həbsdə qalmışdır. Azərbaycanda vicdan məhbuslarının böyük əksəriyyəti Müsəlman Birliyi Hərəkatının (MBH) üzvləridir. Avropa Şurasının Parlament Assembleyası (AŞPA) öz 2019-cu il hesabatında MBH liderləri Taleh Bağırzadə və Abbas Hüseynovun davam edən həbsini vurğulamış və onların, eləcə də bildirildiyi kimi MBH ilə əlaqəli olanların işgəncəyə məruz qalmasını qeyd etmişdir. "Görünməmiş təzyiqə" cavab olaraq, 2019-cu ilin əvvəllərinndə Bağırzadə və Hüseynov aclıq aksiyasına başlamış və bildirilənə görə onlara öz vəkilləri və ailələri görüşə icazə verilməmişdir. Yerli insan haqları fəalları hökumətin "inanclı şəxslərə qarşı repressiyalara başlamaq" cəhdinin bir hissəsi kimi, 2018-ci ildə Gəncədə baş vermiş iğtişaşlarla əlaqədar, onlarla şəxsi hədəf aldığını, həbs etdiyini bir daha vurğulayıb, saxlanılan şəxslərin də işgəncə riski altında olmasını açıq şəkildə bildiriblər.

## ABŞ HÖKUMƏTİNƏ TÖVSİYƏLƏR

- Beynəlxalq Dini Azadlıqlar Aktına (IRFA) uyğun olaraq, dini azadlıqların kobud şəkildə pozulmasında iştirak etdiyinə və ya buna dözümlülük göstərdiyinə görə Azərbaycan ABŞ dövlət departamentinin Xüsusi Müşahidə Siyahısına salınsın.
- Beynəlxalq insan haqları standartları ilə uyğun olması üçün 2009-cu ilin Dini Etiqad Haqqında Qanunu yenidən nəzərdən keçirməsi və 2012-ci ildə Avropa Şurasının Venesiya Komissiyasının və Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının tövsiyələrinə uyğunlaşdırılması üçün Azərbaycan hökuməti ilə birgə işlər görülsün; və

- Beynəlxalq tərəfdaşlarla əməkdaşlıq çərçivəsində və Azərbaycanın Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə, beynəlxalq insan haqları qanunu və Azərbaycan Konstitusiyası qarşısında öhdəliklərinə uyğun olaraq, Azərbaycan hökumətinə alternativ hərbi xidmətin hazırlanması və şüurlu etiraza icazə verməsi istiqamətində kömək göstərilsin.

ABŞ Konqresi bunları etməlidir:

- Müsəlman Birliyi Hərəkatına qarşı rəftarı daxil olmaqla, Azərbaycanın dini azadlıqları və daha geniş çərçivədə insan haqlarını pozmasını təhqiq etmək üçün ictimaiyyətə açıq dinləmələr keçirilsin; əlaqədar narahatlıqlar birbaşa olaraq Azərbaycanın Səfirliyi və digər hökumət rəsmiləri qarşısında qaldırılsın; və bütün vicdan məhbuslarının buraxılması üçün təşviqat aparılsın.

## ƏSAS USCIRF RESURSLARI VƏ FƏALİYYƏTLƏRİ

- **Komissarın nümayəndə heyətinin səfəri:** Bakı və Quba, 2020-ci ilin fevralı
- **Pres Reliz:** USCIRF Delegation Travels to Azerbaijan to Assess Religious Freedom Conditions
- **Müsahibə:** Azerbaijani Government Continues to Restrict Freedom of Religion or Belief (*Turan-da*)

## Ümumi məlumat

Azərbaycanın ehtimal olunan 10.2 milyon əhalisinin təxminən 96 faizi müsəlmandır. Yeni müvafiq statistika mövcud olmasa da, Azərbaycan hökuməti ümumilikdə əhalinin 65 faizinin şiə, 35 faizinin isə sünni olduğunu bildirir. Yerdə qalan 4 faiz əhali Erməni Apostol, ateistlər, Bəhailər, Katoliklər, Gürcü Pravoslav, Hare Krişnalar, Yehova Şahidləri, Yəhudilər, Molokanlar, Protestantlar və Rus Pravoslavlardır.

Azərbaycan öz konstitusiyasında din ilə dövlətin ayrı olduğunu hesab edən dünyəvi dövlət olduğunu vurğulayır. Konstitusiya vicdan azadlığını qorusa da və "fərdi şəkildə və ya digərləri ilə birlikdə, hər hansı dinə və ya heç bir dinə inanmaq və din ilə bağlı inancları ifadə etmək və yaymaq" haqqını nəzərdə tutsa da, hökumət 2009-cu il Dini Etiqad Azadlığı Haqqında Qanun, inzibati məcəllə və cinayət məcəlləsi vasitəsilə belə haqları praktikada məhdudlaşdırıb. Hökumət dini əsaslarla ayrı-seçkiliyi rəsmi olaraq qadağan etsə də, hicablı müsəlman qadınlar iş axtaran zaman ayrı-seçkiliklə üzləşdikləri bildirmiş, hökumətin dövlət orqanlarında və məktəblərdə hicaba qeyri-rəsmi qadağa qoyduğunu iddia etmişlər.

## Dini Ayinlər və Ədəbiyyat Üzərində Dövlət Nəzarəti

2019-cu ildə dini icmalar əsasən dini azadlıq şəraitlərinin yaxşılaşdığını və hökumət ilə daha yaxşı münasibətlərin olduğunu bildiriblər. Hökumətin basqısının azalmasına baxmayaraq, dini icmalar dini fəaliyyəti idarə edən mövcud qanunların qoyduğu məhdudiyyətlər çərçivəsində, eləcə də hökumət rəsmilərinin və hüquq mühafizə qurumlarının yenidən basqı fəaliyyətlərinə qayıda biləcəyi təhlükəsi altında qalmışlar. Bəzi Baptist, Yehova Şahidləri və Lüteran qrupları ilin sonuna qədər qeydiyyatdan keçə bilməmiş və onlar qeydiyyat prosesini məşəqqətli və qeyri-obyektiv olaraq xarakterizə etmişlər; xüsusilə, hər bir dini icmanın ən azı 50 təsisçi üzvünün olması tələbi paytaxtdan kənar yaşayan kiçik icmalar üçün həddən artıq çətin bir tələb olub. Xüsusi icazəsi olmayan əcnəbilərin "dini təbliğat" aparmasına qadağa olduğu kimi qalır — onların fəaliyyəti missionerlik kimi başa düşülür.

İcmanın dini fəaliyyətlərinin qanuni, qeydiyyatdan keçmiş ünvanı ilə məhdudlaşdırılması ilə bağlı din haqqında qanunun müddəası bəzi icmaların hələ də polis hədə-qorxusuna məruz qalmasına səbəb olub. Məsələn, iyun ayında polis Lənkəranda iki Yehova Şahidinə hədə-qorxu gələrək onlara öz evlərində qonaq qəbul etməməyi, öz evlərində dini görüşlər keçirməməyi və ya inanclarını paylaşmamağı əmr edib. Fevral və mart aylarında Xaçmaz və Bakıda baş vermiş hadisələrdə, polis işçiləri Yehova Şahidlərini polis məntəqələrinə çağıraraq onları sorğu-sual etmiş, hədə-qorxu gəlmiş, inanclarını təhqir etmiş və onlardan nəyə görə başqalarına Qurandan danışmadıqlarını soruşub. Belə deyilir ki, bir dəfə polis işçiləri Yehova Şahidlərinə onların "məhv ediləcəyini" söyləyib.

Hökumət bütün dini ədəbiyyatın və əlaqədar materialların DQİDK-nın təsdiqini almasını, holoqramlı stiker ilə işarələnməsini tələb etməyə davam etmiş və dini ədəbiyyatın satışını əvvəlcədən razılaşdırılmış satış məntəqələri ilə məhdudlaşdırmışdır. "*İslamda yoxdur*" adlı kitabı 2018-ci ildə qadağan edilmiş müsəlman din xadimi Elşad Miri Ali Məhkəməyə qadağa əleyhinə apelyasiya şikayəti təqdim etsə də, 2019-cu ilin iyununda onun apelyasiyası rədd edilmişdir. Sentyabr ayında məhkəmə Kamran Hüseynzadəni Bakıda bir məscidin çölündə dini kitabları icazəsiz satdığına görə cərimələyib. "QHT forumu 18"-in bildirdiyinə görə, DQİDK sözügedən kitabların "dini radikallıq və ekstremizmi təbliğ etməsi şübhəsi yaratdığı"nı bildirsə də, sonradan bu iddianı qaldırıb. Bənzər şəkildə, Şirvanda və Şəkidəki regional məhkəmələr də, baptistlər və digərləri tərəfindən dini kitablara icazəsiz malik olmağa və paylamağa görə cərimələrə qarşı apelyasiya şikayətlərini rədd edib. Bu il ərzində məhkəmələr həmçinin "qeyri-qanuni" dini görüşlərlə bağlı apelyasiya şikayətlərini rədd ediblər.

## Dini Məhbuslar

2019-cu ilin noyabr ayında Azərbaycanda Vahid Siyasi Məhbus Siyahısı üzrə İşçi Qrup öz yenilənmiş siyahısını dərc edərək, 45 dustağı dini fəal olaraq qeyd edib - bu isə, ötən ilki ilə müqayisədə dini məhbusların ümumi sayında azalmanı göstərir. Belə dustaqların əksəriyyətini hələ də şübhəli əsaslarla hökumətin həbs etdirdiyi və 20 il kimi uzun müddətə həbsə məhkum etdiyi MBH-nın üzvləri təşkil edib. Mart ayında Türkiyə MBH-nın üzvü Anar Cabbarovu ekstradisiya etmiş və bu, insan haqları müdafiəçiləri tərəfindən qeyri-qanuni əməl kimi xarakterizə olunmuşdu və bildirilənə görə, bunun eynisinin MBH üzvü olduğu iddia edilən Elnur Mehdiyev ilə də edilməsi planlaşdırılır. Media vasitələrinin bildirdiyinə görə Cabbarov aprel ayında heç bir ittiham olmadan buraxılıb.

Dekabr ayında AŞPA Azərbaycandakı siyasi məhbuslarla bağlı qətnamə qəbul edib. Qətnamənin əsaslandığı hesabatda MBH liderləri Taleh Bağırzadə və Abbas Hüseynovun davam edən həbsi məsələsi xüsusilə qaldırılıb, onlara qarşı "rəsmi qurumların" aşkar düşmənçilik etməsi və əvvəllər onların siyasi/dini fəaliyyətlərini sıxışdırmağa cəhdlər etməsi bildirilib."

Xaricdə, İranda dini təhsil almasına baxmayaraq, cümə namazını qıldırdığına görə 2017-ci ildə üç il müddətinə həbsə atılmış dini məhbus və şiə imamı Sərdar Babayev 2019-cu ilin sonuna qədər həbsdə qalmışdır. O, hesabat dövründən sonra, 2020-ci ilin fevral ayında öz həbs müddətini tamamladıqdan sonra buraxılmışdır.

## ƏSAS ABŞ SİYASƏTİ

ABŞ ilə Azərbaycan arasında ikitərəfli münasibətlərdə Avropanın enerji təhlükəsizliyinə, ticarət və sərmayəyə, terrorizm və transmilli təhlükələrə qarşı birgə mübarizəyə diqqət yönəldilib. Birləşmiş Ştatlar həmçinin Fransa və Rusiya ilə birlikdə, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışan Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk Qrupunun həmsədridir. ABŞ Azərbaycana təhlükəsizlik, iqtisadi inkişaf və vətəndaş cəmiyyətinin inkişafı sahəsində kömək göstərməyə davam etməklə yanaşı, son illər ərzində güman edildiyi kimi, İranla üzləşmək niyyəti ilə əlaqədar öz hərbi yardımını artırmışdır.

2019-cu ilin iyul ayında Azərbaycan ilk dəfə olaraq, ABŞ dövlət departamenti tərəfindən təşkil olunan Dini Azadlıqların İnkişaf Etdirilməsi üzrə Toplantıda iştirak edib. DQİDK-nin sədri Mübariz Qurbanlı tədbirdə iştirak edib və Beynəlxalq Dini Azadlıq üzrə Xüsusi Səfir Samuel D. Braunbek ilə görüşüb. Tədbirin yekunu olaraq, Azərbaycan Narahatlıq Bəyanatlarının doqquzundan dördünü imzalasa da, "Terrorizmlə Mübarizə, Dini Azadlığa Qarşı Represssiya üçün Bəhanə kimi" mövzusunda bəyanatı imzalamaqdan imtina etmişdir.

## KOMİSSAR CONNİ MURUN ŞƏXSİ FİKİRLƏRİ

Azərbaycan bu hesabata daxil edilmək üçün zəruri olan həddə cavab vermir. Daha əvvəl dediyim kimi: bu ölkə sünni və şiə din xadimlərinin birgə ibadət edə bildiyi, Evangel və rus pravoslav xristianların birgə dini mərasimdə iştirak edə bildiyi, əhalisi demək olar ki, tamamilə müsəlmanlardan ibarət olmasına baxmayaraq, yəhudi icmalarının azadlıq və tam təhlükəsizlikdən zövq aldığı bir ölkədir. Əhalisinin əksəriyyəti tamamilə müsəlmanlardan ibarət olan bu ölkə məşhur hindu liderləri qəbul edib, İran ilə qonşu olan, şiələrin çoxluq təşkil etdiyi bu ölkə sülhsevər siyasəti səbəbi ilə uzun illər qabaq İsrail dövləti ilə sıx, ictimai və diplomatik münasibətlər qurub. Azərbaycan dini azadlığın sovet rejimi sonrası hüquqi çərçivəyə salınması ilə bağlı çətinlik yaşasa da, hətta bu sahədə də qonşularından daha artığına nail olub. Dini azadlıq icmasının, hökumətin zorakı dini ekstremizm və milli təhlükəsizlik ilə bağlı narahatlıqlarına laqeyd qalmamaqla müdriklik nümayiş etdirməsi arzu olunandır. Yekunda, dünyanın müxtəlif dini liderlərinin Azərbaycan və Ermənistan hökumətlərini əsl sülhə nail olmaq və aralarında olan narahatlıqları və ədalətsizlikləri aradan qaldırmaq üçün ciddi şəkildə çalışmaq çağırışının olduğu dualarına qoşuluram.